**UOT: 658.5**

***Simur Faiq oğlu İSLAMİ***
***Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin magistrantı;***

***Elmi rəhbər: Şəms Teyyub qızı ƏLİYEVA***
***Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin dosenti***

# MARJİNAL TƏHLİL YOLU İLƏ QƏRARLARIN QƏBUL EDİLMƏSİ METODOLOGİYASI

***Xülasə***

**Tədqiqatın məqsədi -** marjinal təhlil metodundan istifadə etməklə səmərəli idarəetmə qərarlarının qəbul edilməsi üsullarını araşdırmaqdır.

**Tədqiqatın metodologiyası -** sistemli yanaşma, kompleks təhlil metodları.

**Tədqiqatın nəticələri -** marjinal təhlil metodu-satışın həcminin, strukturunun, bütün məsrəfləri daimi və dəyişən xərclərə ayırmaqla reallaşdırılan məhsulun maya dəyərinin, satışdan alınan mənfəətin səbəb-nəticə əlaqələrinə istinad etməklə idarəetmə qərarlarının əsaslandırılması və optimallaşdırılması təmin edilir.

**Tədqiqatın praktiki əhəmiyyəti** - tədqiqatın nəticələri və irəli sürülən tövsiyələr idarəetmə qərarlarının qəbulunda marjinal təhlilin tədqiqinə şərait yaradır. Respublikamızın sənaye müəssisələrində marjinal təhlil əsasında qərarların qəbul edilməsinin təkmilləşdirilməsi üçün təklif və tövsiyələrin hazırlanmasında istifadə edilə bilər.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** - idarəetmə qərarlarının qəbulunda marjinal təhlilin tədqiqinin təkmilləşdirilməsi üçün təklif və tövsiyələrin hazırlanmasından ibarətdir.

***Açar sözlər: marjinal təhlil, idarəetmə metodları, qərarların qəbulu, bazar iqtisadiyyatı, satış mənfəəti.***

## *Giriş*

Məlumdur ki, idarəetmə metodları ayrı-ayrı məhsul növləri üzrə daimi və dəyişən xərclərin nisbəti haqda məlumat əldə etməyə imkan verir. Bu səbəbdən praktiki olaraq ölkəmizin heç bir müəssisəsində marjinal təhlil metodundan istifadəyə rast gəlinmir. Hələ də bir sıra keçmiş sovet dövlətlərində, eləcə də ölkəmizdə ənənəvi təhlil mexanizmindən istifadə edilir. Doğrudur, həmin təhlil mexanizmləri əsasında da müəyyən nəticələr eldə etmək olar. Lakin, inteqrasiya olunan bazar şəraitində, qiymətlərin və xərclərin strukturunun daima dəyişdiyi bir dövrdə operativ idarəetmə qərarlarının işlənib hazırlanması, əsaslandırılması zamanı mövcud təhlil metodunun bir sıra çatışmazlıqları üzə çıxır. Məsələn, uzun müddət istehsal olunan məhsulun həcmi ilə digər istehsal amilləri arasındakı asılılığı konkret olaraq məhsulun satış qiymətinin məlum həcmdə dəyişməsi zamanı müəssisənin gəlir və mənfəətinin necə dəyişəcəyi, bu dəyişikliyin hansı interval daxilində müəssisə üçün təhlükəsiz olmasını müəyyən etməyə imkan vermir.

Müəssisənin nəzərdə tutduğu maliyyə nəticələrini əldə etmək üçün, baş verən dəyişikliklərin çevik surətdə təhlil olunması və müəssisənin istehsal xəttində onların nəzərə alınması istiqamətində səmərəli maliyyə qərarlarının işlənib hazırlanması məsələsi bir qədər mürəkkəbləşir. Məhz bu qeyd olunan çatışmazlıqlar artıq özünü təsdiq etmiş marjinal təhlilin metodoloji əsaslarının mənimsənilib istifadə olunmasının əhəmiyyətini artırır.

**Marjinal təhlil metodunun xüsusiyyətləri**

Müəssisələr bazar iqtisadiyyatı şəraitində özünün davamlı olaraq fəaliyyətini təmin etmək üçün müəyyən strateji qərarlar qəbul edirlər. Bu qərarlar isə müəyyən məlumatların təhlil edilməsindən sonra əldə olunan nəticələr əsasında hazırlanır.

Son illər inkişaf etmiş Qərb ölkələrinin təcrübəsində idarəetmə qərarlarının marjinal təhlil metodu əsasında qəbul edilməsi geniş yayılmışdır. Marjinal təhlil metodu:

- satışın həcminin;
- satışın strukturunun;
- bütün məsrəfləri daimi və dəyişən xərclərə ayırmaqla reallaşdırılan məhsulun maya dəyərinin;
- satışdan alınan mənfəətin səbəb-nəticə əlaqələrinə istinad etməklə idarəetmə qərarlarının əsaslandırılması və optimallaşdırılması metodudur.

Marjinal təhlil metodunun tətbiqi nəticəsində idarəetmə qərarlarının əsaslandırılması üçün zəruri olan bir sıra informasiyalar əldə olunur. Bunlar aşağıdakılardır (şəkil 1):

- məhsul vahidinin plan maya dəyəri və onun satış qiymətinin minimal səviyyəsi;
- məhsul çeşidinin ən optimal strukturu;
- istehsal həcminin artırılması ilə satış qymətinin aşağı salınması;
- ayrı-ayrı məhsul çeşidləri üzrə qiymətin dəyişməsinin mənfəətə təsiri;
- satış bazarının genişləndirilməsini qarşısına məqsəd qoyan müəssisənin təyin edəcəyi dempinq qiymətlərinin səviyyəsi;
- ayrı-ayrı material və yarımfabrikatları " İstehsal etmək, yoxsa pulla almaq?" [10, s. 87]

Marjinal təhlil nəticəsində əldə olunan bu kimi informasiyalar əsasında müəssisələr özünün operativ idarəetmə qərarlarını işləyib hazırlayırlar. Müasir şəraitdə müəssisə qiymətlərin dəyişməsi və istehsal xərclərinin səviyyəsi üzrə kənarlaşmalara cəld reaksiya verməklə əsaslandırılmış qərarları qəbul edə və bununla da bazardakı rəqabət qabiliyyətini möhkəmləndirə bilər.

Ələlxüsus, iqtisadiyyatın bütün sahələrində rəqabətin kəskinləşdiyi dövrdə məhsulun maya dəyərinin aşağı salınması ən mühüm istiqamətlərdən biri kimi istifadə olunur.




*Şəkil 1. Marjinal təhlil zamanı əldə olunan informasiyalar*

Ümumiyyətlə, ənənəvi təhlil metodlarının əhəmiyyətini azaltmaq düzgün olmazdı. Sadəcə olaraq bir daha qeyd etmək lazımdır ki, bu metodlar çox tez dəyişən xarici amillər şəraitində operativ idarəetmə qərarlarının işlənib hazırlanmasına imkan vermir [3]. Ümumi halda desək, müəssisə məhsul satışı üzərində problemlə üzləşmədiyi, sifarişlər və satış həcminin sabit olduğu halda, başqa sözlə, planlı təsərrüfat sistemində ənənəvi təhlil metodu öz üstünlüklərini büruzə verir.

Lakin çevik dəyişən bazar sistemi şəraitində idarəetmə qərarlarının əsaslandırılması üçün elə təhlil mexanizmlərindən istifadə etmək lazımdır ki, o:

- ayrı-ayrı məhsul növləri üzrə dəyişən xərclərin (xammal, material, istehsal fəhlələrinin əmək haqqı, yanacaq-enerji və s.);
- ayrı-ayrı məhsul növləri üzrə sabit xərclərin (ümum-zavod və sex xərcləri, inzibati idarəetmə işçilərinin əməkhaqqı və s.);
- buraxılan məhsulların hər biri üzrə satış qiymətinin və maya dəyərinin ən son həddinin-böhran və ya zərərsizlik səviyyəsinin qiymətinin dəyişən şəraitindən asılı olaraq istənilən zaman anında hesablanmasına şərait yaratsın.

Beləliklə, marjinal təhlil metodu nəinki satış, hətta istehsal prosesinə də tətbiq olunur. Buradan da bazardakı dəyişikliklər haqqında informasiyanın nə dərəcədə zəruri, dəyərli olmasının əhəmiyyəti ortaya çıxır. Bu informasiya əsasında marjinal təhlil metodunun köməyilə istənilən kəmiyyətin son hədd səviyyəsini (və ya zərərsizlik səviyyəsini) müəyyənləşdirməklə bazarda daha çevik manevr etmək imkanı qazanmış oluruq. Bütün bunlar isə xarici amillərin çevik dəyişdiyi bir şəraitdə kifayət qədər əsaslandırılmış idarəetmə qərarlarının qəbul edilməsinə imkan yaradır.

**Marjinal təhlilin metodiki əsasları**

İqtisadiyyatın əsas qanununa görə iqtisadi subyektlərin başlıcı məqsədi istehsal - təsərrüfat fəaliyyətindən mənfəət əldə etməkdir, başqa sözlə, minimum xərclərlə maksimum gəlir əldə etmək. Odur ki, bu və ya digər qərarların qəbul edilməsi zamanı onlar bir neçə alternativ variant arasından seçim etmək məcburiyyətində qalırlar [2, s. 87]. Müasir bazar iqtisadiyyatı şəraitində çevik dəyişən konyunkturalar müəssisə rəhbərlərini elmi cəhətdən əsaslandırılmış idarəetmə qərarlarını işləyib hazırlamağa sövq edir.

Qeyd edildiyi kimi, marjinal təhlilin metodiki əsasları üç mühüm iqtisadi göstərici: gəlir, xərclər və mənfəət arasındakı funksional asılılıq üzərində formalaşır. Məhz marjinal təhlil nəticəsində aşağıdakılar mümkün olur (şəkil 2):




***Şəkil 2. Marjinal təhlil zamanı əldə olunacaq nəticələr***

- mənfəətin dəyişməsinə təsir edən amilləri aşkar etmək və onları qabaqcadan proqnozlaşdırmaq;
- istehsal və satışın zərərsizlik həddini müəyyən etmək;

- proqnozlaşdırılan mənfəəti əldə etmək üçün istehsalın hansı həddə qədər artırılıb-azaldılmasını müəyyənləşdirmək;
- ayrı-ayrı məhsul növlərinə qoyulan qiymətin səviyyəsini (o cümlədən qiymətin son həddini) təyin etmək;
- əldə olunmuş nəticələr əsasında alternativlər arasından ən optimalının seçilib qəbul edilməsi.

İstənilən halda bu və ya digər iqtisadi fəaliyyət xərclər hesabına başa gəlir. İqtisadi xərcləri müəyyən əlamətlərinə görə bir neçə qrupda təsnifləşdirmək olar [6, s. 65].

Marjinal təhlil zamanı həmin xərclər istehsalın həcmindən asılı olaraq dəyişmə xarakterinə görə aşağıdakı kimi qruplaşdırılır:
- daimi (FC);
- dəyişən xərclər (VC).

Daimi xərclərin səviyyəsi qısamüddətli dövr üçün istehsal həcminin dəyişməsindən asılı olmayaraq sabit qalır. Daimi xərclər hətta istehsalın olmadığı dövrdə belə mövcud olur. Daimi xərclərə:
- amortizasiya ayırmaları;
- inzibati idarəetmə işçilərinin əməkhaqqı;
- bina və tikililərə görə icarə haqqı;
- əmlak vergisi;
- marketinq və reklam fəaliyyəti ilə bağlı xərclər;
- ümumi zavod xərclər aiddir.

Dəyişən xərclərin səviyyəsi isə istehsal həcminin dəyişməsindən asılı olaraq mütənasib qaydada artır və ya azalır. Bir qayda olaraq dəyişən xərclər dövriyyə vəsaitlərindən istifadə ilə əlaqədar meydana çıxır. Dəyişən xərclərə:
- material və xammal;
- texnoloji məqsədlər üçün enerji və yanacaq;
- istehsal fəhlələrinin əməkhaqqı və s xərclər aiddir.

Xərclərin bu cür bölünməsində əsas məqsəd marjinal mənfəət anlayışına iqtisadi məna verməkdən ibarətdir [4, s. 99].

Qeyd etmək lazımdır ki, ölkəmizdə sənaye müəssisələrinin idarə olunması sistemi üçün yeni olan marjinal təhlil metodu heç də ənənəvi təhlil metodunu inkar etmir. Sadəcə olaraq marjinal təhlil metodu ənənəvi təhlil metodunun müsbət cəhətlərini və eyni zamanda onun çatışmazlıqlarını özündə əks etdirir.

**Marjinal təhlil metodundan əldə edilmiş nəticələr**

Marjinal təhlil metodu göstərir ki, müəssisənin yekun maliyyə nəticələrinin formalaşmasına təsir edən mühüm amillərdən biri istehsal həcminin zərərsizlik nöqtəsidir. Müəssisə özünün daxili rıçaqları hesabına istehsal və satışın zərərsizlik səviyyəsinin qiymətini aşağı salmaq və yaxud zərərsizlik göstəriciləri ilə istehsal təsərrüfat fəaliyyətinin yekun göstəriciləri arasındakı fərqi yüksəltməklə özünün maliyyə nəticələrini yaxşılaşdıra, istehsal təsərrüfat fəaliyyətinin səmərəliliyini yüksəldə bilər.

Daimi, dəyişən xərclər və satış qiyməti ilə mənfəət arasındakı asılılığı bilməklə müəssisənin hazırkı vəziyyətində bunlardan hansının hesabına müəssisənin mənfəətinin artırılmasının məqsədəuyğun olmasını aydınlaşdırmaq mümkündür [7, s.109].

Marjinal təhlil metodunun ən mühüm üstünlüklərindən biri ondan ibarətdir ki, o, ixtiyari anda sadalanan amillər üzrə baş verən dəyişikliklərin proqnozlaşdırılan mənfəət həcminə təsirini aşkar etmək və müəyyən xərcləri ixtisar edib – etməmək, məhsulun satış qiymətini qaldırmaq və ya aşağı salmaq barəsində qərar qəbul etməyə imkan verir. Bu da müəssisənin baş verən dəyişikliklərə cəld reaksiya vermək və bazar mühitində operativ qaydada manevr etmək imkanlarını artırmış olur.

İdarəetmə quruluşunun istənilən pilləsində işlənib hazırlanmış qərarlar, o cümlədən maliyyə qərarları özündə konkret məqsədi hədəf götürmüş və müəyyən nəticələrin əldə olunmasına xidmət edən əmr və göstəricilər sistemini əks etdirir. Marjinal təhlil metodu əsasında maliyyə qərarlarının qəbul olunmasından əvvəl bir neçə mərhələdən ibarət olan hazırlıq prosesi həyata keçirilir (şəkil 3):




***Şəkil 3. Marjinal təhlildən əvvəl həyata keçirilən hazırlıq mərhələləri***

- perspektiv dövr üçün müəssisənin məqsəd və vəzifələrinin müəyyən olunması;
- məqsədə nail olmaq üçün taktiki hərəkət istiqamətlərinin müəyyən olunması;
- alternativ variantlar arasından ən optimalının seçilməsi;
- seçilmiş variantın reallaşdırılması.

Həmin qərarların həyata keçirilməsi zamanı meydana çıxan əsas problem neqativ xarakterli xarici mühit amilləridir, hansı ki, onlar müəssisənin iradəsindən asılı deyil və onların idarə olunması müəssisənin imkanları xaricindədir. Kifayət qədər bu cür amilləri sadalamaq olar:

- rəqabət mühitinin kəskinləşməsi;
- xammal, material, yanacaq və s. üzrə qiymətlərin dəyişməsi;
- yüksək inflyasiya;
- məhsula tələbin azalması və s. [9]

Qısamüddətli – taktiki xarakterli maliyyə qərarları qəbul edərkən mütləq bu kimi spekulyativ amilləri nəzərə almaq lazımdır. Məhz marjinal təhlil metodu bugünkü gündə xammal – material, yanacaq – enerji, işçi qüvvəsi, və s. xərclər, həmçinin satış qiyməti və tələbin dəyişməsini təhlil etməklə əsaslandırılmış maliyyə qərarlarının qəbul olunması üçün zəruri olan məlumatların əldə olunmasına imkan verir. Bu halda müəssisə aşağıdakı kimi suallara cavab tapmış olur (şəkil 4):




***Şəkil 4. Marjinal təhlil zamanı müəssisənin əldə etdiyi cavablar***

- məhsulun qiyməti hansı səviyyədə olmalıdır?
- hər hansı məhsul növündən nə qədər istehsal etməli?
- ayrı – ayrı məhsul növləri üzrə istehsal həcmini artırmaq, yoxsa azaltmaq?
- xarici mühit amillərinin təsiri nəticəsində müəssisənin maliyyə nəticələri necə olacaq?

Marjinal təhlil metodu əsasında müəssisə mövcud olan iki və daha artıq alternativlər üzrə qeyd olunan suallara cavab tapır və özünün son səmərəliliyini – marjinal mənfəətini təmin etmək üçün müvafiq qərarlar qəbul edir [5, s. 90].

Marjinal təhlilin mahiyyəti ondan ibarətdir ki, onu tətbiq etməklə müəssisələr istənilən vəziyyətdə xalis gəliri, yəni ümumi gəlirlə ümumi xərclər arasındakı fərqi maksimuma çatdırmaq imkanlarını müəyyən etməyə səy göstərirlər. Buna nail olmaq üçün müəssisələr marjinal təhlil əsasında fəaliyyətlərinin bəzi ən vacib parametrlərini dəyişə bilərlər. O, adətən nəzarət dəyişəni adlanır.

Məsələn, istehsal prosesinin təhlilinin nəticələrinə əsasən müəssisə ya alınmış resursların miqdarını, ya da istehsalın həcmini dəyişə bilər. Marjinal təhlil “nəzarət dəyişənini daha bir vahid (və ya neçə faiz) artırmağa dəyərmi” sualına cavab verir.

Marjinal təhlilin səmərəli təşkil edilməsi üçün bir sara prinsipləri nəzərə almaq lazımdır. Bu prinsiplərin nəzərdən qaçırılması təhlilin gözlənilən nəticələrinə imkan verməyə bilər.

Marjinal təhlilin əsas prinsipləri aşağıdakılardır (şəkil 5):




***Şəkil 5. Marjinal təhlilin əsas prinsipləri***

1. Nəzarət dəyişənini təyin etmək.
2. Nəzarət dəyişəni bir vahid (və ya neçə faiz) artdıqda ümumi gəlirin nə qədər artacağını müəyyən etmək. Ümumi gəlirdəki bu artım marjinal gəlir (MR) adlanır.
3. Nəzarət dəyişəninin bir vahid (və ya neçə faiz) artımı ilə ümumi xərclərin artımının nə qədər olacağını müəyyən etmək. Bu artım marjinal xərc (MC) adlanır.
4. Bu iki artımı müqayisə etmək.

Marjinal gəlir marjinal dəyəri üstələyirsə, əlavə vahidin (və ya faiz artımının) istifadəsi məqsədəuyğundur. Bu halda yanaşmanın (artımın) səmərəliliyi təmin olunacaqdır. Əgər:

MR = ümumi gəlirin artması və MC = ümumi xərclərin artması kimi ifadə olunarsa, onda:

MR - MC = xalis gəlirin artmasını ifadə edəcəkdir.

MR-nin MC-dən çox olması halında, xalis gəlir artır (onun artımı müsbətdir) və buna görə də nəzarət dəyişəninin həcmini artırmaq üçün hər cür səbəb vardır.

Marjinal təhlil demək olar ki, bütün iqtisadi mülahizələrin əsasını təşkil edir. O, nəzarət dəyişəninin kiçik dəyişiklikləri nəticəsində baş verən təsirlərə istinad edir. Nəzarət dəyişənindəki hər

bir belə dəyişikliyin xalis gəlirə öz müsbət (marjinal gəlir) və mənfi təsiri (marjinal xərc) vardır. Nə qədər ki, müsbət təsir mənfi təsirdən böyükdür, istehsal və ya istehlakın miqyasının artırılmasına ehtiyac olduğunu əminliklə söyləmək olar.

**Marjinal təhlilin üstünlükləri**

Marjinal təhlilin üstünlüklərindən biri, dəyişən bazar şərtlərinə cavab olaraq istehsalın tez bir zamanda istiqamətini dəyişdirmək qabiliyyətidir. Dəyişən (birbaşa) xərclər üçün maya dəyəri nəzərə alındıqda, müəyyən bir məhsulun istehsalının özünü doğrultması daha aydın görünür.

Məhsulun maya dəyərinin dəyişən xərclərinin məhdudlaşdırılması aşağıdakılara imkan verir:

- xərc maddələrinin sayını kəskin azaltmaqla normalaşdırma, planlaşdırma, uçot və nəzarəti sadələşdirməyə;
- xərcin daha aydın görünməsinə və onun ayrı-ayrı elementlərinin daha yaxşı idarə olunmasına.

Məlumdur ki, marjinal təhlilin aparılmasında müəssisələrin əsas məqsədi:

- məhsul istehsalının, satışın, mənfəətin səviyyəsinin daha da yüksəldilməsi üçün imkanların müəyyən edilməsindən;
- bu göstəricilərə təsir edən müsbət və mənfi amillərin aşkara çıxarılmasından;
- bunların əsasında müəssisənin perspektivdə daha səmərəli fəaliyyəti üçün qərarların qəbul edilməsindən ibarətdir.

Bu məqsədə çatmağın əsas yollarından biri marjinal təhlilin həyata keçirilməsinə metodoloji yanaşmanın tətbiq edilməsidir.

***Nəticə***

İnkişaf etmiş ölkələrin qabaqcıl şirkətlərinin təcrübəsi göstərir ki, marjinal təhlil metodundan istifadə səmərəli idarəetmə qərarlarının qəbul edilməsində mühüm rol oynayır. Marjinal təhlil metodu-satışın həcminin, strukturunun, bütün məsrəfləri daimi və dəyişən xərclərə ayırmaqla reallaşdırılan məhsulun maya dəyərinin, satışdan alınan mənfəətin səbəb-nəticə əlaqələrinə istinad etməklə idarəetmə qərarlarının əsaslandırılması və optimallaşdırılması metodudur. Ancaq aparılan təhlillər göstərir ki, ölkəmizin müəssisələrində, o cümlədən “Etilen-Polietilen” zavodunda idarəetmə qərarları qəbul edilərkən marjinal təhlil aparılmır və bu, təbiidir ki, zavodun təsərrüfat-istehsal fəaliyyətinin nəticələrinə mənfi təsir göstərir. Bununla yanaşı, fikrimizcə,“ Etilen-Polietilen” zavodunda idarəetmə qərarlarının marjinal təhlil əsaında qəbul edilməsi üçün imkanlar vardır. Hesab edirik ki, bu dissertasiya işinin III Fəslində qeyd edilən istiqamətlərdə tədbirlərin həyata keçirilməsi bu imkanlardan istifadə edilməsinə imkan verərdi.

**ƏDƏBİYYAT**

1. Cəfərli H.A. İdarəetmə təhlili. Dərs vəsaiti. Bakı, 2018, 228 səh.
2. Əliyev R.B. “İqtisadi təhlil nəzəriyyəsi” Bakı, 2007, 313 səh.
3. “Etilen-Polietilen” zavodunun uçot və hesabat materialları.
4. Mahmudov İ.M., Zeynalov T.Ş. Quliyev F.M. «İqtisadi təhlil» 2003, 560 səh.
5. Mahmudov İ.M., Zeynalov T.Ş., Ismayılov N.M. İqtisadi təhlil. Dərslik, Bakı, 2010. 365 səh.
6. Гармышев М.С. Принятие управленческих решений на основе маржинального анализа. https://cyberleninka.ru/article/n/prinyatie-upravlencheskih-resheniy-na-osnove-marzhinalnogo-analiza.
7. Грищенко О.С. Маржинальный анализ в диагностике финансово-хозяйственного состояния предприятия // Бухгалтерский учет и налогообложение, 2009. № 12. С. 33-47.
8. Jere Thomas.Marginal analysis as the basis for decision making/ https:// cyberleninka.ru/article/n/marginal-analysis-as-the-basis-for-decision-making
9. An integrated marginal analysis approach for build-to-order products https://www.researchgate.net/publication/283895302_An_integrated_marginal_analysis_approach_for_build-to-order_products
10. Marginal Analysis in Economics: Definition, Formula & Examples/

https://study.com/academy/lesson/marginal-analysis-in-economics-definition-formula-examples.html
11. Difference Between Marginal Analysis and Incremental Analysis. http://www.differencebetween.net/business/difference-between-marginal-analysis-and-incremental-analysis

***Симур Фаиг оглы Ислами***
***магистрант АГУНП,***

***Научный руководитель: Шамс Тейюб кызы Алиева***
***доцент АГУНП***

**Методология принятия решений посредством предельного анализа**

***Резюме***

**Цель исследования** - исследовать способы принятия эффективных управленческих решений с помощью метода маржинального анализа.

**Методология исследования** – системный подход, комплексные методы анализа.

**Результаты исследования** - метод маржинального анализа - обоснование и оптимизация управленческих решений обеспечивается обращением к причинно-следственным связям объема и структуры продаж, себестоимости реализуемой продукции путем деления всех затрат на постоянные и переменные затраты и прибыль от продаж.

**Практическая значимость исследования** - результаты исследования и предложенные рекомендации позволяют изучить маржинальный анализ при принятии управленческих решений. Его можно использовать при подготовке предложений и рекомендаций по совершенствованию принятия решений на основе маржинального анализа на промышленных предприятиях нашей республики.

**Оригинальность и научная новизна исследования-** заключается в разработке предложений и рекомендаций по совершенствованию изучения маржинального анализа при принятии управленческих решений.

***Ключевые слова: маржинальный анализ, методы управления, принятие решений, рыночная экономика, прибыль от продаж.***

***Simur Faig Islami***
***magistr ASOIU;***

***Shams Teyyub Aliyeva***
***ass. prof. ASOIU***

**Decision-making methodology through marginal analysis**

***Summary***

**The purpose of the study-** is to investigate the methods of making effective management decisions using the marginal analysis method.

**Research methodology** - systematic approach, complex analysis methods.

**The results of the research** - the marginal analysis method - justification and optimization of management decisions are ensured by referring to the cause-and-effect relationships of the volume and structure of sales, the cost of the product realized by dividing all costs into fixed and variable costs, and profit from sales.

**The practical importance of the research** - the results of the research and the proposed recommendations make it possible to study the marginal analysis in making management decisions. It can be used in the preparation of proposals and recommendations for the improvement of decision-making based on marginal analysis in the industrial enterprises of our republic.

**The originality and scientific innovation of the research** -consists in the development of suggestions and recommendations for improving the study of marginal analysis in making management decisions.

***Keywords: marginal analysis, management methods, decision making, market economy, sales profit.***